## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 37.

***Əyyub Teymur oğlu Əzizov,***
*kimya üzrə fəlsəfə doktoru, professor*
*Bakı Dövlət Universiteti*

***Kamil Nəsir oğlu Haqverdiyev,***
*kimya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*

***Arzu Əbülfət qızı Paşayeva,***
*Bakı Dövlət Universitetinin müəllimi*

# DƏRSDƏNKƏNAR TƏDBİRLƏR ZAMANI ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİ

***Камиль Насир оглу Ахвердиев,***
*доктор философии по химии, доцент*
*Бакинский Государственный Университет*

***Эййуб Теймур оглы Азизов,***
*доктор филисофии по химии, профессор*
*Бакинский Государственный Университет*

***Арзу Абульфат гызы Пашаева,***
*преподаватель Бакинского Государственного Университета*

# ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ УЧАЩИХСЯ ВО ВРЕМЯ ВНЕКЛАССНЫХ РАБОТ

***Kamil Nasir Haqverdiyev,***
*doctor of philosophy in chemistry, associate professor*
*Baky State University*

***Eyyub Teymur Azizov,***
*doctor of philosophy in chemistry, professor*
*Baku State Universitet*

***Arzu Abulfat Pasayeva,***
*teacher of Baku State University*

# PUPILS' PATRIOTIC UPBRINGING DURING EXCLUSIVE WORKS

**Xülasə:** Məqalə müasir insanın tərbiyələndirilməsinə həsr olunmuşdur. Təqdim olunan məqalədə ümumtəhsil məktəblərində dərsdənkənar işlərdə şagirdlərin formalaşdırılması və inkişafından bəhs edilir. Məqalədə yuxarı sinif şagirdlərində vətənpərvərlik tərbiyəsinin formalaşdırılması məsələsi sinif rəhbərləri, müəllimlər tərəfindən faydalanaraq , öz işlərində istifadə edə bilərlər.

***Açar sözlər:*** *asudə vaxt, şagird, vətənpərvərlik, millilik, metodik ədəbiyyat, sinifdənxaric tədbir, insani dəyərlər*

**Резюме:** В представленной статье рассматриваются беседы, проводимые во время внеклассных работах в общеобразовательных школах, как средство формирования и развития учеников. Статья будет полезна классным руководителям и учителям-предметникам при эффективном использовании бесед с точки зрения формирования активного патриатического воспитания у старшеклассников.

***Ключевые слова:*** *свободное, время, ученик, воспитание, патриотизм, национализм, методическая литература, внеклассное мероприятие, человечные ценности*

**Summary:** The article focuses on the upbringing of modern man. The article is dedicated to the issue of mentoring a modern human being. This article discusses conversations held during extracurricular activities in general schools, as a means of forming and developing the civic stand of students. The article will be useful to class teachers and subject teachers in the effective use of interviews in terms of forming an active civic position in high school students.

***Key words***: *spare time, pyupul, education, patriotism, nationalism, methodicall litwrature, extracurricular activities, humane values*

Məktəb həyatı tərbiyənin ən əsas ocağı olub, şagirdlərin dərsdənkənar işlərində vətənpərvərlik tərbiyəsinin kompleks şəkildə həyata keçirilməsinə zərurət yaradır. Dərsdənkənar işlər təlimin davamı kimi qiymətləndirilir.

“Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Sinifdənxaric tədbirlər məktəbdə həyata keçirilən təlim-tərbiyə prosesinin tərkib hissələrindəndir. Dərsdənkənar ideya-siyasi tərbiyə işi dərsdənkənar tədbirlər həm növlərinə, həm də formalarına görə çoxdur. Kimya gecələri, görüşlər, disputlar, konfranslar (şagird konfransları nəzərdə tutulur), dəyirmi masalar, müsabiqələr, festivallar, dərnəklər, kurslar, maraq kursları, turnirlər, yarışlar və bu kimi kütləvi tədbirlər ideya-siyasi tərbiyənin təşkili və keçirilməsi üçün geniş imkanlara malikdir. Belə tədbirlərdə şagirdlərə sağlam siyasi məzmunu özündə əks etdirən ideyaların verilməsi məqsədəuyğun hesab edilir.

Vətənpərvərlik təlimi çox mühüm dəyərə malik olub, bu təlimin hərtərəfli şəkildə gerçəkləşdirilməsi üçün ardıcıl, konseptual tədbirlər həyata keçirmişdir. Vətənpərvərlik hissinin formalaşdırılması milli mənlik şüurunun inkişaf etdirilməsi ilə əlaqədar olub, özünəməxsusluğun bütün əlamətlərini özündə cəmləşdirir. Gənclik hər millətin təməl daşı olub, ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən ibarətdir.

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı didaktik əhəmiyyət daşıyır: “Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir”.

Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən bir də vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasıdır. Məktəblərin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması təsadüfi deyil. Hərbi-vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməlidir. Buna görə də Azərbaycan dövləti xalqını, onun gənc nəslini həmişə sayıq olmağa, vətənimizin hərbi qüdrətini hər vasitə ilə möhkəmləndirməyə, onun müdafiə bacarığını artırmağa çağırır. Xatırladaq ki, Vətənpərvərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qüruru kimi də hallanır. Burada vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümummilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir. Vətənpərvərlik tərbiyəsinin aşılanmasında xalqımızın min illər əvvəl dedikləri tarixi kəlamlarda ifadə olunan vətənə vurğunluq şagirdlərə xatırlanır. Vətənpər-

vərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi diqqət mərkəzindədir. Orta məktəblərin təhsil sistemi çağırış yaşı hələ çatmamış gənclərə ibtidai hərbi hazırlıq keçilməsini, onların fiziki cəhətdən möhkəmliyini təmin etməyi, onları orduda xidmətə hazırlamağı tələb edir. Bu cəhətdən də indiki şəraitdə çağırışaqədərki məktəbli gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məqsədə nail olmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa, məhəbbət tərbiyə etməli, onlarda vətən qarşısında şərəf və borc hissini qüvvətləndirməlidir. Milli mənlik hər bir şəxsin özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqının qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün çalışmağa sövq edir. Son dövrlər qabaqcıl məktəblərimizdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət xeyli artırılıb. İnsanı vətənə bağlayan və onun müdafiəsinə qalxmağa məcbur edən amillər təkcə ruhunun doğurduğu vəziyyət və şüarlar deyil, həmçinin həyatını təmin edən maddi-mənəvi sərvətlərdir. Maddi nemətlər uğrunda aparılan qanlı müharibələr, son nəticədə, yeni ideoloji şüarlar üzə çıxararaq onları "vətən uğrunda aparılan müharibə" müstəvisinə daxil edir. Deməli, vətənin qorunması və müdafiəsinin təşkili o ölkədə yaşayan cəmiyyətin milli birliyindən və sahib olduğu maddi sərvətlərin qorunmasından hədsiz asılıdır. Vətənpərvər insan amilinin kökündə duranlardan ən əsası yaşadığı və ruzi qazandığı, əcdadlarının qəbri olan, nəslinin isə yüz illər sonra da yaşayacağı torpağı müdafiə qayğısıdır. Bu şərtlər onun üçün vətəni qorumağı vacib amilə çevirir. Özünü ölkənin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, əqidəli vətənpərvər gənc əməli fəaliyyəti ilə millətin adı və varlığı ilə fəxr edir, onda milli xarakter və milli mənəviyyat formalaşır. Qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərlərdir ki, gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Azərbaycan xalqı azad və suveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir. Hər bir şagird vətənimizin layiqli vətəndaşı, xalqının gələcəyini düşünən, sabahının qurucusu olan, yüksək əxlaqa və yüksək mənəvi keyfiyyətlərə malik şəxsiyyət kimi yetişməlidir. Müasir Azərbaycan gənclərinin həyatında milli dəyərlər və mənəvi keyfiyyətlər mühüm əhəmiyyət kəsb edir. Respublikamızın orta ümumtəhsil məktəblərində təşkil edilən sinifdənxaric tədbirlər vasitəsilə xalqımızın tarixi keçmişini, milli kökünü, ədəbiyyatını, mədəniyyətini dərindən öyrətmək üçün onlarda böyük maraq yaradılmalıdır. Milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq olmaz. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları, haqlı olaraq, xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda çıxışlar milli-mənəvi dəyərləri qorumaq çağırışına çevrildiyi bir vaxtda mərhum prezident, ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: biz öz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Biz gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik.

Hər bir insanın vətəndaş kimi yerinin, mövqeyinin, ləyaqət və dəyərinin müəyyənləş-

dirilməsində vətənpərvərlik tərbiyəsinin mühüm rol olduğunu bilirik. Vətənpərvərlik insanları Vətən yolunda qəhrəmanlığa və fədakarlığa, yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirməyə, namusla, qeyrətlə çalışmağa ruhlandırır, həmçinin Vətənə, doğma torpağa, xalqa, adət-ənənəyə, dilimizə və digər dəyərlərimizə məhəbbət deməkdir. Vətənə məhəbbət, ilk növbədə, doğma yerlərə və doğma insanlara bağlılıqdan başlanır. Bu baxımdan Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2013-2014-cü tədris ilinin ilk dərs saatının vətənpərvərlik mövzusuna həsr olunması ölkənin bütün pedaqoji ictimaiyyətini bu sahəyə bir daha nəzər salmağa və şagirdlərin vətənpərvərlik tərbiyəsinə xüsusilə həssas yanaşmağa sövq edir. Qloballaşan dünyamızda elmi biliklərə dərindən yiyələnməklə yanaşı, milli mənəvi dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasının əhəmiyyətini nəzərə alaraq, tədris prosesində vətənpərvərlik məsələsini hər zaman diqqət mərkəzində saxlamalıyıq. Məktəblilərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkil edilməsi üçün dərslərdə yeri gəldikcə xalqımızın tarixi keçmişi və müasir mübarizə yolu barədə uyğun məlumatlar verilməli, şagirdlərdə öz yaşlarına uyğun müvafiq təsəvvürlər formalaşdırılmalıdır. Bu, pedaqoji tələblərdən irəli gələn yanaşma olmaqla bərabər, həmçinin hər bir müəllimin Vətən və dövlət qarşısında üzərinə düşən olduqca vacib vəzifələrdən biridir. Günbəgün inkişaf edən, hərtərəfli tərəqqi yolu ilə uğurla irəliləyən müstəqil Azərbaycanın keçdiyi şərəfli mübarizə salnaməsi haqqında şagirdlərin məlumatlandırılması da bu gün ən ümdə məsələlərdən biridir. Müasir müəllim peşəkar kompetensiyalarla bərabər, həm də geniş informasiya bazasına və ümumi biliklərə malik olmalı, davamlı olaraq öz üzərində işləməlidir. Əgər müəllim dərs dediyi şagirdin tədris uğurları ilə bərabər, böyüyə hörmət, ata-anaya, torpağa məhəbbət, ətraf aləmə sağlam münasibət bəsləməsinə nail ola bilirsə, deməli, gələcəyin əsl vətəndaşını hazırlayır. Şagirdlərdə Vətənin müqəddəsliyinə və bölünməzliyinə səmimi və şüurlu inam yarada biliriksə, o, böyüdükcə elini-obasını, Vətənimizi qəlbən sevəcək, sağlam ruhlu, sağlam əqidəli vətəndaş olacaqdır. Bir məqamı da yaddan çıxarmamalıyıq ki, məktəblilərin vətənpərvərlik tərbiyəsinin təşkili işini təkcə dərs prosesi ilə məhdudlaşdırmamalıyıq. Bu məqsədlə dərsdənkənar vaxtlarda keçirilən tədbirlərdən də səmərəli şəkildə yararlanmalıyıq. Belə ki, qəhrəmanlarla görüşlərin təşkili, maraqlı foto-stendlərin hazırlanması, Qarabağ, mərdlik, mübarizlik haqqında şagirdlərin yaşına uyğun söhbətlərin aparılması böyük təsirə malikdir. Həmçinin, valideynlərlə əlaqələrin düzgün təşkili, bir sıra ailələrin öz övladlarına məqsədyönlü yanaşmağa istiqamətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Müdriklərdən birinin dediyi kimi, ilk baxışdan adi təsir bağışlayan çaxmaq daşında od, işıq gizləndiyi kimi, hər bir xalqın potensialı da onun öz içində gizlənmişdir. Odur ki, qara daşdan od aldığımız kimi, zəhmət çəkib gələcəyimiz olan şagirdlərin potensialını da tam olaraq üzə çıxarmalıyıq.

Düşünürəm ki, əsl müəllim hər bir şagirdinə sabahın dühası, gələcəyin zəkası kimi yanaşmalı, uşaqlarda özünə inam hissini gücləndirməlidir. Müasir müəllim bilik verəndən daha çox istiqamət verən olmalı, şagirdlərin şəxsi keyfiyyətlərini, istedad və bacarıqlarını inkişaf etdirməlidir. Məhz belə olduğu halda, müəllimlə şagird arasında ruhi bağlılıq yarandığı təqdirdə şagirdlər müəllimin tədris etdiyi dərsi daha həvəslə mənimsəyəcək, vətənpərvərlik haqqında söylədiyi fikirləri səmimi qəbul edəcək. Yalnız bu amal uğrunda çalışmaq hər bir müəllimin fəaliyyətinin ana xəttinə çevrilməlidir. Qədim dövrdə yaşamış böyük çin filosofu Konfutsinin belə bir sözləri var: "Əgər bir il yaşamaq istəyirsənsə çəltik ək, on il yaşamaq istəyirsənsə ağac ək, yüz il yaşamaq istəyirsənsə nəsil tərbiyə et". Vətənə məhəbbət bu gün təlim-tərbiyənin əsası olmalıdır. Dəyərli insan olmaq üçün, ilk növbədə, Vətəninin vətəndaşı olmalısan. Dinindən, milliyyətindən asılı olmayaraq, hər kəs öz sahəsində Vətənə borcunu verməli, Vətənin qüdrəti üçün səyini əsirgəməməlidir. Böyüyən nəsil bu ruhda tərbiyə edilməlidir.

**Problemin aktuallığı**. Milli-mənəvi dəyərlərimiz barəsində nəinki gənc, orta, yaslı nəsillərimiz də bilməli, bilmədiklərimizi isə daima oxuyub, axtarıb üzə çıxarmalıyıq. Milli ənənələrimizi, mədəniyyətimizi, tariximizi qoruyub saxlamalı, ən əsası isə gənclərimizi düzgün tərbiyəyə yönləndirməliyik.

**Problemin yeniliyi**. Dərsdənkənar vaxtlarda vətənpərvərlik tərbiyəsi məsələsinin aşılanması.

**Problemin praktik əhəmiyyəti.** Müəllimlər, tələbələr məqalədən bəhrələnərək, öz işlərində istifadə edə bilərlər. Cəmiyyət, sinif müəllimləri, vali-

deynlər uşaqların mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsi, gənclərin davranış və rəftarındakı, qarşılıqlı münasibətlərində və ünsiyyətindəki mənfi halların aradan qaldırılması sahəsində zəruri istiqamət, tövsiyə ala biləcək, öz praktik fəaliyyətlərini lazımi səviyyədə quracaqlar.

## Ədəbiyyat:

1. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı: Maarif, 1987.
2. Milli-mənəvi dəyərlər Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında // Xəbərlər, 2008, H. Əliyev.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.
4. Ümummilli liderimiz H. Əliyev gənc nəslin milli-mənəvi dəyərlər əsasında Бакы Гызлар Университети Elmi əsərlər 2015/2 144 tərbiyəsi haqqında // Dil-ədəbiyyat 2008, № 3
5. Bünyatova F. Abdullayev B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2001.
6. Zamanlı A. "Təlimdə yeni metodlardan istifadə", Metodik tövsiyə, Bakı, 2001.
7. Qasımova L. Məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, 2014.

**E-mail:** pasayeva-1969@mail.ru
**Rəyçilər***: prof.* N.Ə. Abışov, *prof.* F.M. Sadıqov
**Redaksiyaya daxil olub:** 09.12.2018.